Birinci xanım olmaq çətin və məsuliyyətlidir

"First lady". Dilimizə tərcümədə "Birinci xanım". Bizim terminologiyamıza son dövrlərdə daxil olan bu anlayışın yaş baxımından tarixi elə də qədim deyil. Müasir dünyamızın siyasi terminologiyasına onu dövrümüzün güclü dövlətlərindən biri olan Amerika Birləşmiş Ştatları gətirib. Birinci xanım, yani her hansı ölkənin dövlət başçısının xanımı deməkdir. Ən maraqlısı budur ki, ABŞ Konstitusiyasında prezident xanımları haqqında heç bir maddə yoxdur, onların qarşısında heç bir vəzifə və borc qoyulmur. Yazılmamış qanunlara görə isə onun əsas vəzifəsi rəsmi tədbirlərdə həyat yoldaşını müşayiət etməkdən, qayğıkeş, sədaqətli ömür-gün yoldaşı və mehriban ana kimi hamıya nümunə olmaqdan ibarətdir. Bu, tarixən də belə olub. Lakin müasir dünyamızın tələbləri tam başqadır və bu tələblər bu gün birinci xanımların ölkələrinin ictimai həyatında aktiv fəaliyyətini bir zərurət kimi qarşıya qoyur. Sivil, demokratik ölkələrdə indi birinci xanımların adı, həmin ölkələrin dövlət başçıları, eslində həyat, ömürgün yoldaşlarının adları ile qoşa çəkilir.

XX əsrdən ABŞ-da geniş işlənməyə başlayan "Birinci xanım" titulu birinci dəfə Amerikanın ilk prezidentinin həyat yoldaşı Marta Vaşinqtona şamil edilib, və bundan sonra həyata daimi bir vəsiqə alıb.

Birinci xanım missiyasının çətinliyi barədə ABŞ-ın keçmiş prezidenti Ronald Reyqanın həyat yoldaşı, zamanının tanınmış aktrisası Nensi Reyqan illər sonra öz xatirələrində yazırdı: "1981-ci ilin yanvarında Vaşinqtona köçəndə, həqiqətən, elə düşünürdüm ki, ölkənin birinci xanımı olmağın bütün tələb və çətinliklərini yaxşı başa düşürəm... Amma ele ilk anlardan başa düşdüm ki, heç nə, heç bir həyat təcrübəsi adamı ölkənin birinci xanımı olmağa hazırlamaq iqtidarında deyil..."

Bəli, bu, birinci xanım missiyasının həyata keçirilməsi sahəsində zəngin ənənələrin formalaşdığı, normaların mövcud olduğu bir ölkədə birinci xanım statusunun çətinliyi barədə bir etirafdır. Elə isə bu sahədə təcrübəsi olmayan, əksinə Şərq ənənələri ilə zəngin olan Azərbaycan kimi ölkədə birinci xanım ictimai vəzifəsi ilə bağlı ənənələri formalaşdırmağın nə qədər çətin olduğunu təsəvvür etmək mümkündür.

Əvvəla qeyd etdik ki, birinci xanım ictimai vəzifədir və onun funksiyası da, icra mexanizmi də bu missiyanı üzərinə götürən şəxs və onun komandası tərəfindən müəyyənləşdirilir. Təbii ki, burada ölkənin tarixi, mədəni xüsusiyyətləri də müəyyən rol oynayır. Bu məsələyə Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın öz yanaşması var. O, müsahibələrinin birində demişdi: "Bu məsələdə hər bir ölkənin tarixi və mədəni xüsusiyyətləri rol oynayır. Elə cəmiyyətlər var ki, ənənəvi olaraq orada dövlət başçısının xanımı ictimai həyatda mühüm rol oynayır. Elə cəmiyyətlər də var ki, orada əksinə, ənənəyə görə belə halar qəbul edilməmişdir və bu cəmiyyətlərdə birinci xanımlar fəal ictimai həyatda bir növ "kadr arxasında" qalırlar.

... Mənim fikrimcə, bu məsələ hər bir halda subyektiv şəkildə həll edilir. O, ölkənin liderinin xanımının öz seçiminin nəticəsidir. Əgər belə qadın ictimai həyatda özü üçün fəal rol seçərsə, bir qayda olaraq, onun mühüm humanitar layihələrdə iştirakından söhbət gedir. Bu yük nə dərəcədə ağırdır? Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat vermeli, sözlərinə, qərarlarına, hərəkətlərinə daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür.

Dövlət başçısının xanımı kimi mənim üçün həmişə ən vacibi o olmuşdur ki, mən öz ölkəm üçün ne edə bilərəm. Axı mənim bu gün məşğul olduğum ictimai fəaliyyət beş il bundan əvvəl erim Azərbaycanın Prezidenti olan vaxtdan başlamamışdır. Sadəcə olaraq, indi həmin fəaliyyət mətbuatda daha tez-tez işıqlandırılır".

Bəli, bu, həqiqətən belədir. Əslində Mehriban xanım bu nəcib seçimi çox-çox əvvəllər müəyyənləşdirmişdi. Belə ki, o, 1995-ci ildə yaratdığı Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və 1996-cı ilde təsis edilen mədəni-maarifçilik yönümlü "Azərbaycan-İrs" jurnalının fəaliyyəti ile Azərbaycan cəmiyyətinde hele ötən esrin 90-cı illərinin ortalarından tanınmağa başlamışdı.

"Azərbaycan-İrs" jurnalı Azərbaycan, ingilis və rus dillərinde nəşr olunmaqla qısa zamanda beynəlxalq aləmde geniş oxucu auditoriyası toplaya bildi. Onun səhifelerinde Azərbaycanın tarixi, mədəniyyəti, incəsəneti barede məqalələr çap edilir, xarici ölkelerde Azərbaycan mədəniyyəti daha geniş şəkilde təbliğ edilirdi. 2002-ci ilde Mehriban xanım Əliyeva Azərbaycan Bədii Gimnastika Federasiyasına rəhberlik missiyasını da öz üzerine götürdü. Bundan sonra Azərbaycan idmançılarının bu sahede elde etdikleri uğurların sayı artdı. Beləliklə, Mehriban xanım haqqında təsəvvürler daha da mükemmelleşdi. 2003-cü ildən etibaren Bakıda bedii gimnastika üzre Dünya kubokunun merhele yarışlarının keçirilmesine start verildi. 2005-ci ilde Azərbaycan ilk defe dünya çempionatını, 2007-ci ilde ise ilk Avropa birinciliyini keçirmek hüququ qazandı, idmançı qızlarımızın bu növü ile meşğul olmaq istəyən qızların nailiyyetleri artdı, en başlıcası ise, idmanın gimnastika bölmelerine kütlevi axını başladı, Azərbaycanda beynəlxalq yarışların keçirilmesi xoş bir ənənəye çevrildi.

Azərbaycan gimnastlarının beynəlxalq yarışlardaki möhteşəm qələbələrinden sonra Mehriban xanım Əliyeva haqqında Azərbaycan cəmiyyetinde formalaşan fikirler mətbuatda yayılan aşağıdaki setirlerle bir daha tesdiqlendi: "Bütün bu uğurların bir canlı rehni, menevi anası, ilham menbeyi var - Federasiyanın prezidenti Mehriban Əliyeva! Öz necibliyi, humanizmi, insanperverliyi, qızıl ürəyi ile destek verdiyi ve günü bu gün de tehsil, sehiyye, mədəni irsin qorunması sahesinde uğurla gerçekleşdirilen onlarla layihe kimi idmanın bu sahesinin inkişafını da o, ohdesine götürüb. Bu yol necib yoldur, Azərbaycan Prezidentine kömek, Azərbaycan xalqına temennasız xidmet yoludur".

Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi fəaliyyəti ise ölçüyəgelmezdir. Ümummilli lider Heydər Əliyevin zengin irsinin öyrenilmesi, genclerin milli dövletçilik ideyaları ile terbiye edilmesi, qloballaşmada milli-menevi deyerlerin qorunub saxlanılması kimi necib mesələlerin hellini qarşısına meqsed qoyan Fond, eyni zamanda elm, tehsil, mədəniyyət, sehiyye, idman ve ekologiya sahelerinde maraqlı layiheler heyata keçirir. Fondun meqsedyönlü fəaliyyəti neticesinde bu qurum hem Azərbaycanda, hem de Azərbaycandan kenarlarda yüksek nüfuz qazanmışdır.

2015-ci il iyunun 12-den 28-dek ötən müddetde Bakıda keçirilen ilk Avropa Oyunlarının uğurla başa çatmasında da ölkenin birinci xanımının böyük rolu olmuşdur. Birinci Avropa Oyunlarının Bakıda keçirilmesi ister ölkemiz, istərse de bütün Avropa Oyunları hərəkatı üçün tarixi hadise idi. Mehriban xanım Əliyeva Təşkilat Komitəsinə sedr seçildiyi gündən etrafına topladığı komanda ile bir-böyük işler gördü: "Bu oyunlar Avropa idmanı tarixinde yeni sehife açacaq. Birinci Avropa Oyunlarını təşkil etmek, ona ev sahibliyi etmek ve onu keçirmek hem böyük şeref, hem de böyük məsuliyyətdir"-deyen birinci xanım çiyinlerine düşen yükün məsuliyyetini ciddi qebul edir. Onun bu xidmeti, əməyi Avropanın idman istiqamətlərinin tərəfindən de yüksek qiymetlendirildi. 17 gunluk bu elit idman yarışması bütün dünyaya gözel anlar yaşatdı. Oyunların möhteşəm açılış mərasiminin teəssüratını hele uzun zaman unutmayacağıq. Mehriban xanımın təbirince desek, bu "17 gün erzinde biz Avropa dövletleri arasında birliyin, hemreyliyin ve dostluğun şahidi olduq." Açılış mərasiminde iştirak eden dünya liderlerinin tedbirle bağlı fikirleri de deyilenlerin bir daha tesdiqleyir. Rusiya prezidenti Vladimir Putin açılış mərasiminin möhteşəmliyinden sizi dünen reallaşan tarixi hadise – ilk Avropa Oyunlarının açılışı münasibetile tebrik edirəm. Bu, həqiqətən de, beynəlxalq idman hadisesine layiq, möhteşəm, teəssüratoyadıcı bir hadise, eyni zamanda, istedadla, ləyaqetle, çox gözel teşkil olunmuş tedbimet idi. Demeliyem ki, bunu hazırlayanlar ebes yere zehmet serf etmeyibler, bu tedbir, həqiqətən, çox gözəl alınıb".

Onun xidmetleri dövletimiz tərəfinden de yüksek qiymetlendirilir. "Bakı-2015" Avropa Oyunlarında iştirak etmiş idmançılarla görüşü zamanı ölkə başçısı cenab İlham Əliyev Teşkilat Komitəsinin sedri kimi Mehriban xanım Əliyevaya en ali mükafat, "Heydər Əliyev" ordenini teqdim edərken demişdi: "Teşkilat Komitəsine rehberlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyetini xüsusile yüksek qiymetlendirirem. O, bu Oyunların keçirilmesine çox böyük töhfe vermişdi. Deye bilerem ki, bu Oyunların bu seviyyede keçirilmesine öz canını qoymuşdu".

Mehriban xanım ise bu xoş, semimi sözlere, yüksek mükafata göre minnetdarlığını bildirerek fikrini bele ifede etmişdi: "Çox sağ olun ki, Sizin ve Azərbaycan xalqının birliyi neticesinde ölkemiz bele inanılmaz nailiyyetlere imza atıb. Cenab Prezident, biz her birimiz ölkemizin esgeriyik ve Azərbaycanın geleceyi naminde daha da tam gücümüzle xidmet etmeye hazırıq".

Her bir dövlet mövcud olan maddi və mənəvi problemləri aradan qaldırmaq, sağlam ictimai mühiti temin etmek işinde daim cemiyyetin destəyine arxalanır. Bele bir cemiyyetin esas gösterıcileri ise ictimai nezaret, qarşıya qoyulmuş vezifelerin icrasında könüllü iştirak, dövlet ve ictimai mülkiyyete de özel mülkiyyet qedər sayğılı münasibetdir. Bu gün Azərbaycanda da bele bir vetendaş cemiyyeti formalaşdırılır. Yeni her bir vetendaş rol ve vezifelerini, mensub olduğu dövletin bugününe ve geleceyine göre daşıdığı məsuliyyeti daha aydın görür ve buna riayet etmeye çalışır. Dövletin heyata keçirdiyi ardıcıl tedbirlere kömek işinde insanlar arasında böyük nüfuz qazanan ictimai teşkilatlar da az rol oynamır. Cemiyyet tərəfinden ireli sürülen ideyalar, onlara verilen ümummilli destek mehz bu teşkilatların etrafında mərkezleşir. Konkret vezifelerin yerine yetirilmesinde ele bu teşkilatların özleri dövletin en böyük yardımçısı kimi çıxış edirler.

Ümummilli lider Heydər Əliyevin ideyaları işığında yaradılan Heydər Əliyev Fondu bele bir missiyanı uğurla yerine yetirir. Mehriban xanımın rehberliyi altında fəaliyyet gösteren bu fondun teşəbbüsü ile heyata keçirilen tedbirler dövlet ve vetendaş birliyini temin edir, eyni zamanda Mehriban Əliyevanın birinci xanım statusunun tesdiqlenmesine imkan yaradır. O ise bu gün yerine yetirdiyi fəal ictimai rolu özünün könüllü seçiminə çevirmekle birinci xanım missiyasının deqiq formulunu müəyyənləşdirir, bu missiyanın fərd olaraq her bir insanın daxili dünyasından, humanizm duyğularından, öz xalqı, öz dövleti üçün ne ise etmek meramından ireli geldiyini sübuta yetirir.

Mehriban xanım deyir: "Heyatda her bir kesin yerini ve taleyini tarix müeyyen edir. Odur ki, böyük, ne de kiçik rollar olmur. Öz heyat kitabını yazmağa ancaq senin şəxsi, derk edilmiş məsuliyyetin imkan verir. Bu kitabda her kes özünü şəxsi heyatının ve dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi teəssüm etdirir. Kimsenše, ele de olmalısan, bax, budur, budur bizim heyatımız. Ona gore de özgelerin rollarını ve obrazlarını gerek öz üzerine götürməyesen. Çünki sen de, dünyada yerin de yegane ve benzersizdir".

Ölkemizin birinci xanımı öz heyat kitabını özü yazır, şəxsi heyatının ve dünyanın qurub-yaradıcısı kimi teəssüm etdirir özünü. Nece varsa, ele... Onun teşəbbüsü, teşkilatçılığı ve qayğısı ile heyata keçirilen tedbirler esası olu öndərimiz Heydər Əliyev tərəfinden qoyulmuş "azərbaycançılıq" ideologiyasına xidmet edir. "Milli ideologiyamızın bu günü ve sabahı – ümumbeşəri deyerlerle milli-mənəvi deyerlerin vehdetindedir." Dahi öndərimizin uzaqgörənliklə söylediyi bu fikirleri öz emeli fəaliyyetinde defelerle tesdiq eden Heydər Əliyev Fondunun bütün tedbirleri mehz bu birliyin daha möhkemlenmesine ve xalqımızın ümumi tereqqisine yönəldilmişdi. Bütün bu işlere rehberlik etmek ise insandan böyük, geniş ürek ve bir de esl milli vetenperverlik hissi teleb edir.

Dünya onun simasında sedaqetli ömürgün yoldaşını, qayğıkeş, mehriban ana nümunesini çox aydın görür. Görkemli söz ustadları Mir Cəlalın, Nəsir İmanquliyevin, akademik Arif Paşayev, merhum şərqşünas alim, professor Aida xanım İmanquliyeva kimi işıqlı insanların mənəvi-genetik irsinin daşıyıcısı olan Mehriban xanım, sonralar böyük şəxsiyyet Heydər Əliyevin ailesinde heyat mektebi keçmiş, necib insan, nurlu ürek sahibi Zerife xanım Əliyevadan görüb-götürmüşdü. Bu böyük şəxsiyyetlerin her biri insanlar üçün ümid yeri olub. Özü de bir ümid qapısı, merhemet ünvanına çevrilen Mehriban xanım Azərbaycan qadını kimi de nümunedir, tekce bizim üçün deyil, bütün dünya qadınlarına. İşimle bağlı xarici ölkelerde, mötəber toplantılarda tez-tez iştirak eden bir elm adamı kimi men bunun canlı şahidiyem. Tam səmimiyyeti ile deyirem, ölkemizdən çox-çox uzaqlarda Mehriban xanımın ünvanına deyilen xoş sözler, söylenilen dəyərli fikirler bir Azərbaycan qadını kimi qelbimi riqqetle doldurur, o en böyük gürur hissi yaşayıram. Fürsetden istifade edib, terife ehtiyacı olmasa da, ölkemizin birinci xanımı haqqında ürek sözlerimi o yüksek tribunadan beyan etmeye çalışıram. Düşünürem ki, bu, menim bir vetendaşlıq borcumdur. Ne yaxşı ki, her işde nümune olan, öyrenmek üçün üz tutduğumuz bir ünvan var: First lady Mehriban xanım Əliyeva. Tanrı sizi qorusun!

Afət ABBASOVA,
Azərbaycan Dövlət İqtisad Universitetinin Xarici dil - 2 kafedrası, professor.